# Fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasında didaktik oyunların rolu

**Kifayət Rəşid qızı Məmmədova**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*Məktəbəqədər təhsilin inkişafı şöbəsinin baş mütəxəssisi*
**E-mail:** kifayet.memmedova.1977@mail.ru

**Rəyçilər:** p.ü.f.d.,dos. Ş.A. Baxışova,
p.ü.f.d., dos. S.M. Sadıqova

**Açar sözlər:** məktəbəqədər təhsil, fiziki mədəniyyət məşğələsi, məktəbəqədər yaşlı uşaq, ünsiyyət, didaktik oyun, məktəbəqədər təhsil müəssisəsi, davranış mədəniyyəti, tərbiyəçi-müəllim, valideyn

**Ключевые слова:** дошкольного образование, занятия физической культура, ребенок дошкольного возраста, общение, дидактическая игра, дошкольное образовательное учреждение, культура поведения, воспитатель-учитель, родитель

**Key words:** preschool education, physical culture training, preschool aged child, communication, didactic game, preschool educational enterprise, behavioral culture, educator-teacher, parent

Cəmiyyət üçün qəbul olunmuş mədəni münasibətlərin kompleks daşıyıcısı olan davranış mədəniyyətinin hələ kiçik yaşlardan başlayaraq uşaqların rəftarında özünü göstərən elementar təzahürləri sonralar məktəbəqədər yaş dövrlərində innovativ yollarla inkişaf etdirilərək, onların davranışlarında kompitensiya çevrilir. Məktəbəqədər təhsilin proqramının (kurikulum) (3-4 yaş) Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik inkişaf sahəsinin "1.2. Qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir; 1.4. Təhlükəsizlik qaydalarına əməl edir", İdrakın inkişafı sahəsi üzrə "2.1. Nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir", Sosial-emosional inkişaf sahəsinin "4.2. Sosial həyatla bağlı bacarıqlarını özünəməxsus tərzdə nümayiş etdirir; 4.3. Özündən kiçiklər, həmyaşıdları və böyüklərlə ünsiyyət qurur; 4.4 Hörmət (münasibət) və dözüm (tolerantlıq) nümayiş etdirir" [1] və s. təlim standartlarında əks olunan davranış kriteriyaları uşaqların düzgün rəftara, mədəni-gigiyenik və rejim qaydalarına, bir sözlə, davranış mədəniyyətinə yiyələnmələrini, şəxsiyyətlərinin formalaşdırılmasını əsas tələblər formasında məktəbəqədər təhsilin qarşısına qoyur. Məktəbəqədər təhsil müəssisələrində uşaqların davranışının, şəxsiyyətinin formalaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə "19 iyun 2017-ci il tarixli 1471 №-li Fərmanında deyilir:

"7.2. Məktəbəqədər təhsil vasitəsilə uşaqların erkən yaş dövrlərində əqli, fiziki, yaradıcı potensialının və mədəni səviyyəsinin inkişafının, psixoloji dayanıqlığının, estetik tərbiyəsinin, sadə əmək vərdişlərinə yiyələnməsinin, ətraf aləmə, şəxsi sağlamlığın qorunmasına həssas və şüurlu münasibətinin, zəruri həyati bacarıqlara yiyələnməsinin, şəxsiyyətinin formalaşdırılmasının əsası qoyulur.

[1] Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş). Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, səh. 22-27-36.

7.3. Məktəbəqədər təhsil uşaqların milli-mənəvi və bəşəri dəyərlər ruhunda, dövlət maraqları və azərbaycançılıq məfkurəsi əsasında tərbiyə olunmasına istiqamətləndirilir, ümumi təhsilə hazırlığını təmin edir". [1]

Məktəbəqədər təhsil müəssisələrində uşaqların davranış mədəniyyəti ilə bağlı aparılan araşdırmalar, pedaqoji, psixoloji ədəbiyyatın təhlili göstərir ki, fiziki mədəniyyət məşğələlərində uşaqların davranış mədəniyyətinin formalaşdırılması istiqamətində məşğələnin didaktik əsaslarla təşkilinə və sağlamlıqla bağlı idmanyönümlü didaktik oyunların vahid təlimedici kompleksinin işlənilməsinə böyük ehtiyac vardır. Çünki cəmiyyətin dəyişən ehtiyac və tələblərinə uyğun daim inkişafda olan müasir məktəbəqədər təhsil digər məşğələlərdə olduğu kimi fiziki mədəniyyət məşğələlərində də uşaqların davranış mədəniyyətinin formalaşdırılmasının analitik təhlilinə, onun inkişaf səviyyəsinin öyrənilməsinə, məzmunun yeniləşdirilərək, didaktik əsaslarla tətbiqinə zəruri nüanslar kimi yanaşılmasını tələb edir.

İnteraktiv təlimin məqsədi, məzmunu, üsulu, formaları və s. kimi mühüm nüansları əhatə edən didaktik əsasların zəruri istiqamətlərindən biri də oyun texnologiyasıdır ki, bunun da uşaqların davranışının formalaşdırılmasında əvəzsiz rolu vardır. Hələ kiçik yaşlardan başlayaraq uşaqların ətrafdakı əşya və hadisələri öyrənmələri, sosiallaşmaları oyun prosesində baş verir və onların müşahidə etdiklərini oyuna gətirərək, yüksək əhval-ruhiyyə ilə rollarla nümayiş etdirmələri, tərəfdaşları ilə əməkdaşlıq etmələri, dostluq, yoldaşlıq, güzəştə getmək, improvizə etmədən oyun zamanı empatiya, spontan bacarıqlar, emosional hisslər, məsuliyyətlilik nümayiş etdirmələri və s. zəngin didaktik xarakterli oyunlarda onların nitqinin, davranış kriteriyalarının dəfələrlə təkrar olunaraq, möhkəmlənməsinə şərait yaradır. Uşaqların ümumi inkişafına xidmət edən oyunla bağlı "K.D.Uşinski qeyd edirdi ki, "Oyun işsiz keçmir, o, cəmiyyətdəki adamların xarakterini, davranışlarını özündə əks etdirir. O, birgə keçirilən oyunu daha yüksək qiymətləndirir, onun ictimai münasibətləri əks etdirdiyini qeyd edirdi. Bununla yanaşı K.D.Uşinski müstəqil həyata keçirilən oyunlara da diqqətlə yanaşır, belə oyunlara rəhbərlik, ona əxlaqi istiqamət verilməsini zəruri hesab edirdi".[2]

Uşaqların həyatının əsasını təşkil edərək, onların ümumi inkişafında mühüm əhəmiyyətə malik olan oyun uşaqların fiziki inkişafına, sağlamlığına, davranış tərzinə təsir edərək, yoldaşları ilə birgə uğur qazanmaq kimi əxlaqi keyfiyyətlər formalaşdırır. Digər oyun növləri kimi, didaktik oyunlar da uşaqlara öz bacarıqlarını müstəqil göstərməyə şərait yaradaraq, onların psixo-fizioloji inkişafında mühüm rol oynayır. Pozitiv təlim mühiti yaradan didaktik oyunlar uşaqlarda sensor bacarıqları, təfəkkürü, tədqiqatçılıq bacarıqlarını, əşyalardan istifadə qaydalarını, qeyri-ixtiyari diqqətdən ixtiyari diqqətə, konkret təfəkkürdən mücərrəd təfəkkürə keçidi formalaşdırır. Rəngarəng qaydalara uyğun məzmunu ilə uşaqlarda motiv yaradan didaktik oyunlar təlimin interaktivliyini artıraraq, qarşıya qoyulmuş məqsədi reallaşdırmaqla, uşaqların nizam-intizama əməl etmələrinə, rəqib oyunçulara hörmətlə yanaşmalarına, özünə və ətrafdakılara rəğbət və ehtiram göstərmələrinə, oyunun mövzusu ilə bağlı öz fikirlərini sərbəst və aydın söyləmələrinə tam şərait yaradılır. Oyun prosesində qaydaların uşaqlar tərəfindən mənimsənilərək, praktikada tətbiqi həmçinin uşaqlarda özünəinam, müstəqil fəaliyyət, qarşılıqlı əməkdaşlıq, dostluq, güzəştə getmək, oyun tərəfdaşı ilə razılaşmaq, səbrli olmaq, özünənəzarət bacarıqlarını formalaşdırır. Didaktik oyunlarda əşyaların rənginə, forma və ölçüsünə görə seçilməsi, müqayisəsi və sintezi, yerinin dəyişdirilməsi, cüt şəkillərin, əşyaların uyğunlaşdırılaraq düzülməsi, şifahi təqdimatı və s. əməliyyatlar uşaqların bir-biri ilə qarşılıqlı əlaqəsini,

[1] http://www.president.az/articles/24248
[2] Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2000, səh. 294.

birgə fəaliyyətini tələb edir. Məntiqi təfəkkürü, kommunikativ münasibətləri formalaşdıran didaktik oyunların nəticələri uşaqların nailiyyət göstəriciləri kimi dəyərləndirilir. Oyun zamanı nailiyyətlərin dəyərləndirilməsinin uşaqlarla birgə aparılması oyunun düzgün icrasının təhlili xarakteri daşımaqla, oyunun uşaqlar tərəfindən daha yaxşı mənimsənilməsinə və uşaqların stimullaşdırılmasına şərait yaradır.

Praktik xarakterli didaktik oyunlar uşaqların oyunun qaydalarını başa düşərək, onun məqsədinə uyğun fəaliyyət göstərmələrinə, davranmalarına, potensiallarını nümayiş etdirmələrinə, oyun zamanı çətinlik çəkən uşaqların çətinliklərinin aradan qaldırılmasına şərait yaradan didaktik vasitədir. Didaktik oyunun icrası zamanı tərbiyəçi-müəllimin oyunun məzmunu və tətbiqi qaydalarını, məşğələnin müvafiq hissəsində hansı məzmunda didaktik oyun keçirəyəcini müəyyənləşdirməsi və ən əsası isə məqsədə nail olmaq üçün oyunun məzmununu nəticəyönümlü təşkil etməsi əsas şərtlərdəndir.

Öyrətmə vasitələrindən biri kimi uşaqlara yeni biliklər verərərək, bacarıqlarında nümayiş etdirmələrinə xidmət edən didaktik oyunların uşaqların yaş səviyyələrinə uyğun seçilməsi işin səmərəli təşkili üçün çox əhəmiyyətlidir. Araşdırmalar göstərir ki, məktəbəqədər təhsil müəssisələrinin orta yaş qruplarında (3-4 yaş) oyunun qaydası uşaqlara birbaşa deyil, onların fəaliyyətləri ilə növbələşdirilərək izah edildiyindən, tərbiyəçi-müəllim bu sistemliliyi əvvəlcədən müəyyənləşdirir. Bu yaş dövründə tərbiyəçi-müəllim özü uşaqlarla oyunda iştirak edir və oyunun gedişində qaydaları uşaqlara öyrədir. Böyük yaş qruplarında (4-5 yaş) isə oyunun qaydası tərbiyəçi-müəllim tərəfindən ümumi şəkildə verildiyindən, oyunun məzmunu əvvəlcədən uşaqların başa düşdüyü tərzdə, aydın şəkildə izah olunur və uşaqlar qaydalara uyğun olaraq oyunda iştirak edirlər. Məktəbəhazırlıq qruplarında isə didaktik oyunun icra qaydaları digər yaş qruplarından öz optimallığı ilə fərqlənir. Belə ki, 5-6 yaş dövründə uşaqlar artıq oyun qaydalarını bildiklərinə görə tərbiyəçi-müəllim oyunun qaydasını sadəcə xatırlatmaqla, oyuna giriş edir və uşaqlar qaydalara uyğun olaraq müstəqil şəkildə oyuna başlayırlar. Hər üç yaş qrupu üzrə aparılan müşahidələr göstərir ki, oyun zamanı uşaqların yoldaşları ilə rəftarına, onların bir-birinə qarşı səbrlə, səmimi, mehriban davranmalarına, bir-birini dinləmələrinə, fikirləri ilə razılaşmalarına, tolerantlıq nümayiş etdirmələrinə tərbiyəçi-müəllim tərəfindən nəzarət olunması və bu istiqamətdə onların davranışlarını korrektə etməsi davranış kriteriyalarının uşaqların bacarıqlarında möhkəmlənməsinə və işin səmərəli təşkilinə təkan verir. Didaktik oyunların keçirilməsi zamanı uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması, diferensiallığa əməl olunması, özünəinamsız uşaqlara xüsusi yanaşılması, tərbiyəçi-müəllimin belə uşağa tez-tez müraciət etməsi, söz verməsi, müxtəlif iş formaları zamanı fəal uşağın onlara tərəf müqabili seçilməsi və s. bu tip uşaqlarda özünəqapanma, utancaqlıq kimi kompleks hisslərin aradan qalxmasına və birgə fəaliyyət şəraitində davranışlarının inkişaf etməsinə zəmin yaradır.

Təcrübələr göstərir ki, didaktik prinsiplər əsasında təşkil olunan fiziki mədəniyyət məşğələlərində idmanyönümlü didaktik oyunların keçirilməsi zamanı uşaqların yoldaşları ilə cütlərlə, qruplarla, yaxud kollektiv iş formalarında birgə, səbrlə fəaliyyəti və əməkdaşlıqları müşahidə olunur. İdmanyönümlü didaktik oyunların keçirilməsi eyni zamanda, uşaqların fiziki mədəniyyət üzrə biliklərə yiyələnməsinə motiv yaradaraq, onların əqli, fiziki, estetik, ekoloji tərbiyəsinin, koqnitiv, sensor, kommunikativ bacarıqlarının, tolerantlığın, dinləmə mədəniyyətinin, ətrafdakılara hörmət və ehtiramla yanaşma bacarıqlarının və s. təkrarlanaraq, davranışlarında kompetensiyaya çevrilməsinə səbəb olur. Fiziki mədəniyyət məşğələlərində "Tayını tap", "Formasına görə seç", "Topu rəngli lentlərə tərəf diyirlət", "Təmizlik sağlamlıqdır", "Hansı idman oyunudur", "Sehirli sözlər" və s. mövzularda "idmanyönümlü" didaktik oyunlar keçirilərkən uşaqların verilmiş cüt şəkilləri, ayrı-ayrı əşyaları növünə, rənginə və s. görə

qruplaşdırmaları, adlandırmaları, oyunla bağlı müzakirələr, söhbətlər keçirmələri onların nitq bacarıqlarının nümayişi ilə müşahidə olunur ki, bunlar da uşaqların elementar davranış kriteriyalarının formalaşdırılması kimi dəyərləndirilir. Fiziki mədəniyyət məşğələlərində psixoloji mexanizmlərə uyğun aşağıdakı xarakterik xüsusiyyətlərlə təşkil olunan didaktik oyunlar təlimin inteqrativliyinə xidmət edir:

- problemli, məqsədyönlü, düşündürücü və nəticəyönümlü;
- müstəqil fəaliyyəti təmin edən;
- dialoq və əməkdaşlığa, kommunikativliyə yönələn;
- fəal tədqiqatçılıq bacarığına şərait yaradan;
- dəstəkləyici və stimullaşdırıcı mühitin təşkili.

Oyun zamanı uşaqların ləngliyi, yaxud tələsərək öz növbələrini gözləməmələri, digərini itələyərək keçmələri oyunun qaydalarının pozulmasına, təhlükəsizlik qaydalarına əməl edilməməsinə və beləliklə, uşaqların narazılığına səbəb olduğundan, uşaqlara bu barədə tərbiyəçi-müəllimin əvvəlcədən xəbərdarlıq etməsi oyunun düzgün təşkilini təmin edir. Oyun zamanı uşaqların düzgün davranışının əsası tərbiyəçi-müəllimin rəftarından asılı olduğundan o, davranışı ilə uşaqlara nümunə olmaqla, onların da davranış kriteriyalarına əməl etmələrinə nail olur. Araşdırmalar göstərir ki, uşaqların davranış mədəniyyətinin inkişafı ilə bağlı yalnız tərbiyəçi-müəllimlər deyil, valideynlərin də bu işə cəlb olunmaları, tərbiyəçi-müəllimlərlə əməkdaşlıq etmələri işin səmərəliliyi üçün daha əhəmiyyətlidir. Ailədə uşaqlar üçün oyunların təşkili, didaktik oyunların uşaqların davranış mədəniyyətinin formalaşdırılmasındakı rolu ilə bağlı valideynlərin fikirlərini öyrənmək məqsədi ilə keçirilən eksperimental sorğuların nəticələri göstərir ki, uşaqların şəxsi keyfiyyətləri və davranışları, hansı oyunlara maraq göstərmələri, oyun zamanı yoldaşları ilə davranış tərzi, ətrafdakılara münasibəti və s. haqqında valideynlərin məlumatları azdır, eyni zamanda uşaqlarla ailədə oyunların təşkilinə də səthi yanaşırlar. Valideynlər evdə uşaqlar üçün oyun təşkil etməmələrini, onlarla oynamamalarını evdə işlərinin çox olması və bu səbəbdən də uşağa vaxt ayıra bilməmələri ilə izah edirlər. Göründüyü kimi, bu cür əsassız səbəblərdən uşaqların oyunu təkbaşına oynamaları onların davranış mədəniyyətinin düzgün formalaşmasına və inkişafına əks təsir göstərir. Bütün bunları nəzərə alaraq, oyunların məktəbəqədər yaşlı uşaqların fəal, yaradıcı təfəkkürünün inkişafında, xarakterlərinin, davranışlarının formalaşmasındakı rolu barədə tərbiyəçi-müəllimlərin valideynləri məlumatlandırması, fiziki mədəniyyət məşğələlərində uşaqların davranış mədəniyyətinin inkişafı üzrə aparılan işin ailədə davam etdirilərək, möhkəmləndirilməsi ilə bağlı tövsiyərləri işin nəticəyönümlüyünü təmin edir.

**Məqalənin aktuallığı.** Uşaqların davranış mədəniyyətinin formalaşdırılaraq, elementar davranış kriteriyalarına əməl etmələri müasir məktəbəqədər təhsilin qarşısında duran əsas tələblərdəndir. Bu isə öz növbəsində məktəbəqədər yaşlı uşaqların ictimai sosiallaşmasını təmin edərək, onları gələcək məktəb həyatına hazırlayır. Bu baxımdan, fiziki mədəniyyət məşğələlərində didaktik oyunlar vasitəsi uşaqların davranış mədəniyyətlərinin formalaşdırılması aktual məsələlərdən biri kimi dəyərləndirilir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə fiziki mədəniyyət məşğələlərində məktəbəqədər yaşlı uşaqların davranış mədəniyyətinin formalaşdırılmasında didaktik oyunların rolu, psixoloji mexanizmlərə uyğun xarakterik xüsusiyyətləri, bu işin təşkilində tərbiyəçi-müəllim və valideyn əməkdaşlığı araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta-ixtisas məktəblərinin müəllimləri, tələbələri, məktəbəqədər təhsil müəssisələrində çalışan metodistlər, tərbiyəçi-müəllimlər və valideynlər bəhrələnə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş). Bakı, Təhsil Problemləri İnstitutunun TTM nəşriyyatı, 2015, 96 s.

2. http://www.president.az/articles/242488

3. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı, Nasir, 2000, 374 s.

4. Петерина С.В. Воспитание культуры поведения у детей дошкольного возраста. М.Просвещение, 1986, 96 с.

**К.Р. Мамедова**

## Роль дидактических игр в формировании культуры поведения детей дошкольного возраста на занятиях физической культуры

### Резюме

В статье говорится о исследованиях и практике, связанные с дидактическим развитием поведенческой культуры детей дошкольного возраста на занятиях физической культуры в дошкольном образовании. Здесь речь идет об инновационных подходах к формированию поведенческой культуры детей и роли дидактических игровых технологий в развитии детей дошкольного возраста.

**K.R. Mammadova**

## The role of didactic games in the formation of a culture of behavior of preschool children in physical culture training

### Summary

The article refers to research and practice related to the didactic development of the behavioral culture of children in preschool education. At the same time, are talking about innovative approaches to the formation of behavioral culture of children and the role of didactic game technologies in the development of preschool children.

**Redaksiyaya daxil olub:** 10.03.2020